DEYİLƏSİ ÇOX SÖZÜM VARDI...

(Paşayev Elsevər Vaqif oğlu, 01.07.1988-25.10.2020 - Qubadlı)

Haqqında söhbət açacağımız qəhrəmanımız Paşayev Elsevər Vaqif oğlu 1 iyul 1988-ci ildə Qovsudlu kəndində anadan olmuşdur. Qovsudlu kəndi Cəbrayılın barlı-bərəkətli Gəyən düzündə yerləşən köklü-köməcli kəndlərindən biri idi. Bu kənd və Gəyən düzü heyvandarlıq üçün çox əlverişli bir məkan idi. Cəbrayıldan Soltanlı, Alıkeyxalı kəndləri ilə Araza söykənən Qovudlu yuxarılara getdikcə Dağmasanlı, Tumas ata dağı ilə əhatələnirdi. Vaqif müəllim və onun ailə üzvləri bu əlverişli, bərəkətli məkanda əkin-biçin işləri ilə məşğul olurdu. Üstəlik Vaqif müəllim biologiya ixtisasını seçdiyinə görə bu yerlərin bioloji xüsusiyyətlərinə də bələd idi. Həm də biologiyadan dərs deyirdi. Kənddən bir neçə kilometr cənubda Şahvəlli – Göyərçin Veysəlli ərazisində sement istehsalı üçün xammal ola biləcək çoxlu ehtiyatlar da var idi. Kənd camaatının bir qismi Xudafərində yenicə fəaliyyətə başlayan Xudafərin Su Elektrik Stansiyasının tikintisinə cəlb olunmuşdular. Hər şey öz axarında idi.

Xain qonşularımızın 1988-ci ildən başlayan torpaq iddiaları tədricən axara öz təsirini göstərdi. 5 il nəmərdi düşmənin təzyiq və hücumlarına məruz qalan torpaqlarımız məlum səbəblərdən işğal olundu. Yüz minlərlə soydaşımız didərgin düşdü. Vaqif müəllimin də ailəsi Beyləqan rayonunda Milabad qəsəbəsinə sığındı.

5 yaşı yenicə tamam olan Elsəvər bu müəmmalardan hələ ki, baş çıxarmırdı. Atası bu adı ona sevə-sevə qoymuşdu. Elini, obasını, vətənini sevən olmağını istəmişdi Elsevərin.

Elsevər 1993-cü ildə Vilayət Cəfərov adına Milabad kənd orta məktəbinin birinci sinfinə daxil olub. Daha sonra təhsilini Milabadda yerləşən 21 saylı Cəbrayıl orta məktəbində davam etdirib. Müəllimlərinin və validleynlərinin dediyinə görə Elsevər dərs vaxtı bütün uşaqlardan seçilirdi. Yaxşı oxumaqla bərabər, onda yaşına yaraşmayan bir istiqanlılıq, vətənsevərlik var idi. Həm də lap yeniyetmə yaşlarından hərbiyə meyilli idi. Elə bu meyllə də o, 2003-cü ildə C.Naxçıvanski adına hərbi liseyə daxil olur. Burada oxuduğu müddətdə yenə də öz savadı və biliyi ilə yenidən fərqlənir. Daha sonra H.Əliyev adına Ali Hərbi Məktəbə daxil olan Elsevər Paşayev 2010-cu ildə ali təhsili başa vuraraq motoatıcı istisası üzrə Gəncədəki "N" saylı hərbi hissədə fəaliyyətə başlayır.

E.Paşayev 2012-ci ildə Xəyalə Vaqifqızı ilə ailə həyatı qurur. Bu evlilikdən onların iki qız övladı dünyaya gəlir. Nəzrin və Banu. 2013-cü ildə baş leytenant hərbi rütbəsi ilə Bakıda yerləşən Sülhməramlı tabora rəhbərlik edir. 2014-cü ildə Bolqarıstanda hərbi təlimdə daha sonra Türkiyənin paytaxtı Ankara şəhərində snayper kurslarında iştirak edir. Kursu uğurla başa vurduğu üçün ona uzanan-nişançı serftifikatı verilir. 2015-ci ildə Macarıstan və Çexiyada, 2016-cı ildə Almaniyada hərbi təlimlərdə iştirak edir. 2017-ci ildə Elsevərə artıq kapitan rütbəsi verilmiş, 3-cü dərəcəli medalla təltif olunmuşdu. 2018-ci ildə 3 ay müddətində İngiltərədə hərbi təlimlərdə iştirak etmişdir. Bir-birinin ardınca Demoktarik Cümhuriyyətin yaradılmasının 90, 95 və 100 illiyi medalları ilə təltif olunmuşdur.

Elsevər harda olurdusa olsun təmsil etdiyi və canından da artıq sevdiyi Azərbaycanın mənafeyni qorumuş, ona sədaqətlə qulluq etmişdir. Həddindən artıq savadlı və bilikli idi. Bəzən ona poliqlot da deyirdilər. çünki Elsevər 5 dil bilirdi. Elə bu xarici dilləri bildiyinə görə də hər hansı bir xarici ölkədə olarkən çətinlik çəkmirdi. 2019-cu ilin dekabrından 2020-ci ilin iyulun 1-nə kimi Əfqanıstanda hərbi təlimlərdə olmuş, buradakı uğurlarına görə "Əfqanıstan" medalına layiq görülmüdür. Sentyabr ayının 27-də II Qarabağ müharibəsi başlayan gündən müharibənin qaynar nöqtələrində olan Elsevər Paşayev Cəbrayıl, Füzuli, Qubadlı və Laçın uğrunda gedən döyüşlərdə əsl qəhrəmanlıq nümunəsi göstərmişdir. Döyüşlərin qızğın gedişində qərargah rəisi, tabor komandiri təyin edilməklə vaxtından qabaq mayor rütbəsi ilə təltif olunur. Mayor E.Paşayev vətənini, torpağını odlu bir məhəbbətlə sevirdi. Cəbrayıl alınandan sonra uçmağa qanadı yox idi. Tez-tez ailəsi ilə danışır, "tezliklə Şuşada olacağıq" deyirdi. Oktyabrın 20-də Qubadlı istiqamətində gedən ağır döyüşlər zamanı yaralanır, bir ayağını itirir. 4 gün Ağcabədi şəhərindəki hərbi qospitalda komada qalır. Lakin həkimlərin soyinə baxmayaraq, 25 oktyabrda vətən eşqi ilə döyünən ürəyi dayanır. Vətənimizin azadlığı uğrunda canından keçən bir qəhrəmanımız da beləcə əbədiyyətə qovuşur.

Elsevərin həyat yoldaşı onun haqqında danışarkən deyir ki, o, vətənini hər şeydən, ailəsindən də artıq sevirdi. Müharibədə olduğu müddətdə həftədə



bir dəfə bizimlə danışırdı. Oktyabrın 10-da zəng vuranda təzə rütbə və vəzifə aldığını bildirdi. "Hər şey yaxşıdı, narahat olmayın"- dedi. "İnşallah, bütün torpaqlarımızı düşməndən azad edəcəyik" – deyirdi. Axırıncı dəfə oktyabrın 18-də zəng vurmuşdu. Yenə bizi arxayın elədi. "Özünüzdən muğayat olun" – dedi. Ayın 20-si biz Ağcabədiyə gedəndə fikirləşirdim ki, yox, yalan olar. Elsevər deyil deyə özümə təskinlik verirdim. Kaş ki, bircə dəfə görə biləydim, deyilsoi o qədər sözüm vardı ki... Biz onunla heç yolun yarısına qədər də getməmişdik. Ancaq bu gün çox qürurluyam ki, Elsevər bizim üçün elə ad qoydu ki, bu ad heç heç kəsə qismət olmur. Bu şəhidlik adı idi. Mən fəxr hissi ilə deyirəm ki, mən şəhid mayor Elsevər Paşayevin həyat yoldaşıyam. Allah bütün şəhidlərimizə rəhmət eləsin.

Döyüş yoldaşları Elsevər haqqında danışarkən onun güclü komandir, cəngavər kimi döyüşçü və vətənini hər şeydən çox sevən vətənpərvər bir oğul olduğunu deyirlər. O, heç zaman əsgərinə "irəli" demədi, hər zaman "ardımca" dedi. Hər zaman ən təhlükəli yerlərə özü təkbaşına daxil oldu. O, əsgərlərinə həm ata, həm də qardaş oldu.

E.Paşayevin bacısı Şəfa gözləri dolmuş halda: "Elsevər haqqında danışmaq mənim üçün çox çətindir. Bacılar hər zaman qardaşları ilə fəxr ediblər. Mən də fəxr edirəm ki, həyatı tarixə yazılacaq, gələcək nəsllə örnək olacaq qəhrəmanın bacısıyam. Elsevər mənə həm ata, həm də qardaş olub. Atamızı tez itirdiyimizə görə onu atamızın yerinə qoymuşduq. Məndən balaca olsa da, hər sözümüzü onunla danışıb, onunla məsləhətləşərdim. Elsevər şəhid olanda atamı ikinci dəfə itirdiyimi hiss elədim. Allah bütün şəhidlərimizə rəhmət eləsin".

Mayorun kiçik bacısı Bənövşə də onu çox qürurla, həm də sonsuz bir kədərlə xatırlayır: "Nənəmin adını mənə verdiklərino görə hər zaman "nənə" – deyə müraciət edirdi. O, müharibəyə gedən zaman bizə dəməmişdi. Cəbrayılın alındığı gün mənə zəng vurdu, təbrik etdi, mən onda bildim, "Nənə, artıq biz qaçqın deyilik", - dedi. Çox sevinirdi. Mənə dedi ki, "İnşallah, bayrağımızla hərbi parada gələcəm". Ancaq parada gəlmək qardaşıma qismət olmadı. Şuşanın alınan günü və hərbi parad günü qardaşımın məzarına getdim. Dedim "qardaşım, uğrunda canından keçdiyin torpaqlarımız artıq azaddır. Rahat uyu". Allah sənə rəhmət eləsin". Oğullar yurdu darda qoymadılar. Can verib, qan verib Qarabağı Vətənə qaytardılar, bzo qaytardılar. Şairlər də Vətən üçün can əsirgəməyən oğulların adlarını şcirə, sənətə, poeziyaya gətirdilər. Daha doğrusu, onların ölməz obrazlarını poetik lövhələrə köçürdülər. Elsevərin bacısı Bənövşənin sözlərindən sonra tanınmış Azərbaycan şairi Əli Rza Xələflinin "Bənövşə" şcirini təqdim etmək yerinə düşər:

Bəlkə, şəhid olub sevgilin sənin,
Onunçun olmusan kövrək, bənövşə.
Yaz ağzı soyuğa açma sinəni,
Dərdin sinəm üstə titrək, bənövşə.

Göz dəyər soyunub şəhdə çimənə,
Qəfil sırsıradan qorxa, eymənə...
Yazdan xəbər üçün çölə, çəmənə,
Nə yaman gəlmisən yüyrək, bənövşə.

Dağında, bağında göz olan gözəl,
Yandırar gözləri köz olan gözəl,
Başının bəlası söz olan gözəl,
Bəxtindən hürkəksən, hürkək, bənövşə.

Axır ki, dolanıb üzü bu yana,
Haqdan cəza gələr sənə qıyana.
Bitmisən göz dağı talana, qana,
Kolların dibində seyrək, bənövşə.

Xələfli söylasin həzin əsənə,
Bəxtindən gileyli qalıb küsənə;
Şəhidlik yolunda can-dedi sənə,
Yağıya göz dağı Beyrək, bənövşə.

Müəllif Əli Rza Xələfli şeirdəki bənövşə obrazı ilə Qarabağı gözlərimizin önündə canlandırır. Bənövşənin timsalında Qarabağı görürük. Burada daha bir obraz da diqqəti çəkir. O, Qarabağ yolunda canını əsirgəməyən Dədə Qorqud qəhrəmanının - Beyrəyin adı ilə görünən Elsevərin özüdür. Şəhidlik yolu seçmiş Elsevərlər sanki dastandan çıxıb günümizə gəlmiş oğullardır.

...Hələ C.Naxçıvanski adına liseydə onun müəllimi olmuş polkovnik-leytenant Daşdəmir Əliyev deyirdi ki, Elsevər daim savadı və müəllimlərə hörməti ilə seçilirdi. Bir gün döyüşlərdən çox qabaq mənimlə rastlaşanda soruşdu ki, müəllim, məni tanıdınız? Bir anlıq dayandım, dedim – yox. Gülərək mənə dedi ki, "yadınızdadır sinifdə ilk dəfə məni fərqlənmə diplomu ilə təltif etmişdiniz". Mən bu gün fəxr edirəm ki, Elsevərin bir vətənpərvər kimi yetişməsində mənim rolum var.

Qızğın döyüşlərin getdiyi zaman Qubadlı ətrafındakı mövqelərdə 400-ə qədər əsgorimizi mühasirədən çıxaran mayor Elsevər Paşayev sonrakı döyüşlərin birində ağır yaralanır və 4 gün sonra şəhid olur. Azərbaycan Respublikası ərazilərinin işğaldan azad olunması və ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarına yüksək peşəkarlıqla rəhbərlik etdiyinə, hərbi qulluq vəzifəsini yerinə yetirərkən igidlik və mərdlik nümunəsi göstərdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə mayor Paşayev Elsevər Vafiq oğlu ölümündən sonra "Qarabağ" ordeni, "Vətən uğrunda", "Cəbrayılın azad olunması görə", "Qubadlının azad olunmasına görə" müdalları ilə təltif edilmişdir.

Elsevər Paşayevin həyat tarixçəsi ilə daha yaxından tanış olanda gördük ki, o, həm də şeiri, poeziyanı sevən incə ruhlu bir şairdir. Ona görə birbaşa şair deyirik ki, bu şeirlər bədii-emosional dəyəri ədəbi xislətinə görə mükəmməl bir söz adamının qələmindən süzüldüyünü bildirir. Onun şeirlərindən birini - "Azərbaycan" şeirini təqdim edirik:

Hər torpağın, hər daşın tarixin nişanəsi,
Füsunkar təbiətin bir cənnət mənzərəsi.
Sən qocaman məmləkət, sən ey odlar ölkəsi,
Tarixin sınağından çıxmısan zaman-zaman.

Eniş-yoxuşlu olub keçdiyin yollar sənin,
Yerə-göyə sığışmaz gördüyün qanlar sənin.
Çəpər oldu yoluna bədnam yağılar sənin,
Kədərmi oldu ancaq kor bəxtinə yazılan?

Bakı bu taydan baxır, Təbriz o taydan baxır,
Arada yazıq-yazıq dərdli Araxım axır.
Düşünürəm bu fikir məni yandırır yaxır,
Necə qıydı ayıran qardaşı-qardaşından.

Sən anamızsan bizim, sənlə vurur qəlbimiz,
Nə qədər dözmək olar, daha yoxdu səbrimiz.
İgidə meydan gərək, meydə istəyirik biz,
Sənin üçün hazırıq keçməyə canımızdan.

Azad olacaq yenə gülp-çiçəkli Qarabağ,
Silinəcək sinəndən neçə yara, neçə dağ,
Yenidən yazacağıq tarixi varaq-varaq.
Qoy kömək olsun bizə böyük, ulu Yaradan,
Həmişə yaşa, var ol, ey doğma Azərbaycan!

İsmayıl İMANZADƏ,
Tariyel ABBASLI,